**UOT: 18**

# QƏRB İNTİBAHI VƏ ANTROPOSENTRİK PARADİQMA

**Nailə Əsədova**
fəlsəfə üzrə fəlsəfə doktoru,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,
nailya_asadova@inbox.ru
DOI:10.30546/ifs.2022.1(38).100

**Xülasə**. Nailə Əsədovanın məqaləsinin **əsas məqsədi** – Qərb intibahı kontekstində antroposentrik paradiqmanın təhlilidir.

**Metodologiya**: Müəllif məqaləni yazarkən induktiv və müqayisəli analiz metodlarından istifadə etmişdir.

**Elmi yenilik**: Məqalənin elmi yeniliyi antroposentrik paradiqmanın İntibah mədəniyyətinin öyrənilməsinə tətbiq edilməsidir.Tədqiqatın yekunu olaraq müəllif belə bir nəticəyə gəlmişdir ki, İntibah dövrünün incəsənəti mahiyyət etibarı ilə antroposentrik paradiqmadan çıxış edirdi. Digər dövrlər üçün səciyyəvi olan estetik özünüdərk formalarından fərqli olaraq İntibah incəsənətində insana, onun mahiyyətinə, təbiətinə, onun dünyada yerinin başa düşülməsinə məhz antroposentrik prinsip əsasında yanaşılırdı.

**Açar sözlər**: İntibah, antroposentrizm, Tanrı, estetika, mədəniyyət, insan, gözəllik, humanizm.

## Giriş/Introduction

İntibah hər şeydən öncə, əlbəttə ki, antik mədəniyyətin dirçəlişi ilə səciyyəvi idi. Əgər Şərq intibahı ilk olaraq XI əsrdə müsəlman dünyasında, Ərəb xilafəti ərazisində formalaşmağa başlamışdısa, Qərb intibahı bir neçə əsr sonra - XIV əsrdə İtaliyada formalaşmağa başladı.

Şərq intibahının beşiyi, əlbəttə ki, Bağdad, Qərb intibahının beşiyi isə Florensiyadır.

Bağdad kimi, Florensiya da dünya incəsənətinə bir çox görkəmli şəxsiyyətlər bəxş etmiş bir şəhər olaraq, İntibahın vətəni sayılır.

Qərb intibahının niyə məhz Florensiyadan başlaması ilə bağlı mövcud konsepsiyalara bir aydınlıq gətirməyə çalışaq.

Bir sıra mənbələrdə Qərb intibahının Florensiyadan başlamasının səbəbi kimi, 1453-cü ildə Osmanlı dövləti tərəfindən Bizansın fəthi göstərilir. Bu mövqenin məntiqi əsası olaraq belə bir tarixi fakt xatırlanır ki, Bizansın Osmanlı dövləti tərəfindən fəthi nəticəsində yunan alimlərinin bir çoxu İtaliyada məskunlaşmağa başlamış və təbii ki, yunan mədəniyyətinin yazılı mənbələrini də özləri ilə gətirmişlər [7; 8; 10].

Amma belə bir izah özünü heç də bütün hallarda doğrultmur. Çünki Qərb intibahının ən ilkin nümayəndəsi hesab edilən Petrarkanın fəaliyyət dövrü XIV əsrə aid idi. Osmanlı dövləti tərəfindən Bizansın fəthi isə 1453-cü ildə, yəni XV əsrdə baş vermişdi.

Bu, Qərb intibahının İtaliyada başlaması hadisəsinin mümkün izahlarından biridir və bəzi məqamları aydınlaşdıra bilən bir izah olsa da, heç də bütün hallar üçün özünü doğrultmur.

Qərb intibahının İtaliyada başlamasının digər bir izahı XIV- XV əsrlərdə İtaliyada ticarətin gur inkişafı ilə bağlıdır.

Belə ki, səlib yürüşləri Şərqlə Qərb arasında ticarət mübadiləsində üstünlüyün İtaliya tacirlərinin əlinə keçməsini şərtləndirmişdi. Bu səbəbdən Florensiyanın, həmçinin Venesiya, Neapol, Milan kimi müstəqil şəhər-dövlətlərin ticarəti daha da inkişaf etməyə başladı və təbii ki, bu halda həm onların hakimiyyəti altında olan ərazilər xeyli genişləndi, həm də iqtisadi əlaqələr fonunda mədəni əlaqələri gücləndi. Onlar Avropanın həm ən böyük iqtisadi mərkəzlərinə, həm də ən məşhur mədəniyyət mərkəzlərinə çevrildilər.

**Qərb İntibahının sosial-siyasi əsasları və antroposentrik prinsip**

Qərb intibahının ilk öncə məhz Florensiyadan öz başlanğıcını götürməsinin səbəbi kimi isə, adətən, bu dövrdə İtaliyada yeni təbəqənin - burjuaziyanın məhz Florensiyada meydana gəlməsi faktı göstərilir. Həmçinin burada burjuaziyanın başlıca dayağı olan Mediçilər ailəsi elmin və incəsənətin inkişafına xüsusi həssaslıq nümayiş etdirirdi.

Florensiyada öz bankını yaradan Mediçilər ailəsi bank işində böyük uğur qazanmaqla yanaşı, həm də İtaliya incəsənətinin və bu incəsənətin gətirdiyi humanizmin çiçəklənməsini təmin edən ideal bir mühit yaratmışdılar.

XV əsrin birinci yarısında Florensiya şəhərinin siyasi hakimiyyəti də Mediçilər ailəsinin əlinə keçir və bu ailə həmin dövrün incəsənət və elm adamlarına, xüsusən də memar və heykəltəraşlara həm maddi, həm də mənəvi baxımdan hərtərəfli dəstək göstərmələrini daha da genişləndirdilər.

Bu xüsusda Mediçi ailəsindən olan Lorenzo Mediçinin rolu xüsusilə böyük olmuşdu. Lorenzo Mediçi özü də Petrarkaya nəzirə olaraq şeirlər yazırdı. O, dövrün dahi sənətkarları olan Bottiçelliyə, Leonardo da Vinçiyə və Mikelanceloya hərtərəfli dəstək göstərməklə, onları təkcə Florensiyada deyil, bütün İtaliyada məşhurlaşdırdı[3].

Mediçi ailəsindən olan papalar incəsənətin inkişafına himayədarlıq ənənəsini Romada davam etdirdilər. Məsələn, Papa VII Klimentin himayəsi altında Mikelancelo Sikstin kapellasının divarlarında və tavanında öz möhtəşəm əsərlərini yaratdı. Papa X Leo Rafael Santinin işlərinə himayədarlıq etmişdi.

Bu sənətkarların yaratdıqları bir çox əsərlər dini mözvuda olsa da, bu əsərlərdə diqqət mərkəzində, əslində, Tanrı deyil, canlı insan dayanırdı. Hətta Tanrının özü də insan görkəmində təqdim olunurdu. Əgər Şərqdə Nəsiminin timsalında insanın ilahiləşdirilməsi baş vermişdisə, burada Tanrının insaniləşdirilməsi baş verir. Şərqdə olduğu kimi, Qərbdə də insan ən ali varlıq kimi təqdim olunmağa başlayır, daha doğrusu Tanrı ucalığında olan ali varlıq kimi. Bu hal özlüyündə orta əsrlərin teosentrik dünyagörüşündən antroposentrik dünyagörüşə keçidin baş verməsindən xəbər verir.

Heç də təsadüfi deyildir ki, İntibah dövrünün dünyagörüşü “humanizm” adı ilə səciyyələndirilir. Xatırladım ki, “humanizm” termininin əsasını təşkil edən “humanus” sözü latın dilindən tərcümədə elə “insani” deməkdir.

İntibah dövrü bəzən orta əsrlərin son mərhələsi kimi, bəzən orta əsrlərdən sonrakı başqa bir müstəqil dövr kimi, bəzən də Yeni dövrün başlanğıcı kimi səciyyələndirilir. Amma necə səciyyələndirilməsindən asılı olmayaraq İntibah bəşər tarixinin, bəşəriyyətin, xüsusən də estetik fikir tarixinin mühüm mərhələsini təşkil edir. İntibah dahi sənətkarlar yetişdirən bir dövr olmaqla yanaşı, həm də hümanizmin təşəkkül tapdığı bir dövr idi.

Başlıca olaraq hümanizm prinsipləri əsasında inkişaf edən İntibah incəsənəti antroposentrik paradiqmadan çıxış edirdi. İnsanın bir şəxsiyyət kimi özünü dəyərləndirməsi məsələsi bu dövrdə daha çox önəm daşımağa başlamışdı.

Digər dövrlərdən fərqli olaraq İntibah dövründə insana, onun mahiyyətinə, təbiətinə, onun dünyada yerinin başa düşülməsinə məhz antroposentrik prinsip əsasında yanaşılırdı. Əgər qədim dövr dünyagörüşündə insana yalnız təbiətin bir hissəsi kimi, Orta əsrlərdə aciz, taleyi öz əlində olmayan itaətkar bir bəndə kimi yanaşılırdısa, İntibah dövründə insana təbiət üzərində hökmranlıq edə bilən, öz taleyini özü yarada bilən, özü özünün sahibi olan şüurlu varlıq kimi yanaşıldı. İnsan həyatının heç də taledən və Tanrıdan deyil, insanın öz bacarığından, öz iradəsindən asılı olduğu vurğulanmağa başladı.

Bütün bu hallar İntibah dövrü mədəniyyətinin məhz antroposentrik paradiqma zəminində inkişaf etdiyindən xəbər verir.

Antroposentrik paradiqma İntibah dövründə dövrün hakim paradiqması statusunda idi. Lakin onun hakim paradiqma statusuna malik olması İntibah dövründə baş tutmuşdusa da, sadəcə, bir paradiqma olaraq formalaşması Antik dövrə aid idi.

Dünyanı insan anlayışından çıxış edərək izah edən ilk təlimləri b.e.ə. V əsrdə qədim yunan filosofu Sokrat və sofistlər yaratmışdılar. Bununla da antik yunan fəlsəfəsində "antroposentrik" dövr adlandırıla bilən bir mərhələ başlamışdı. Sokrat insanları öz zövqü, öz həyatı haqqında düşünməyə yönəldirdi. Sofistlərin birincisi hesab edilən Protaqor vurğulayırdı ki, insan hər şeyin ölçüsüdür, mövcud olan şeylərin ona görə ölçüsüdür ki, onlar mövcuddurlar, mövcud olmayan şeylərin isə ona görə ölçüsüdür ki, onlar mövcud deyillər. Hər iki nümunədən görünür ki, bu nümunələrdə diqqət mərkəzində dayanan nə təbiət, nə tale, nə də tanrı deyildir, bu nümunələrdə diqqət mərkəzində dayanan insandır.

Lakin bir daha vurğulamaq istərdik ki, insanı öz mərkəzi anlayışı kimi qəbul edən antroposentrik paradiqma Antik dövrdə yalnız formalaşma mərhələsində idi. Onun dövrün hakim paradiqma statusuna malik olması İntibah dövründə baş verdi.

Antroposentrik paradiqmanın İntibah dövründə digər dövrlərdən fərqli olaraq antroposentrikliyin daha da inkişaf etməsi bu dövrdə insana daha çox dəyər verilməsi ilə, hümanizm ideyalarının geniş vüsət alması ilə və əlbəttə ki, antik mədəniyyətin, antik fəlsəfənin dirçəldilməsi ilə bağlı idi.

Bədii - estetik dəyərlərin həmin bu dovrdə - İntibah dövründə sürətlə inkişaf etməsi sayəsində fiziki gözəlliklə mənəvi mahiyyət arasındakı sıx əlaqə daha cox aşkar surətdə özünü göstərir. Öz başlanğıcını XIV əsrin erkən humanizmindən götürən və XVII əsrdə İngilis Burjua İnqilabına qədər, yəni Yeni dövrün başlanğıcına qədər təqribən 300 illik bir tarixi əhatə edən İntibah dövründə estetik təfəkkür digər təfəkkür formaları ilə yanaşı, gur inkişaf mərhələsini keçmişdir. Qeyd etdiyimiz kimi, İntibah hər şeydən öncə antik mədəniyyətin yenidən dirçəldilməsi ilə əlaqədar olduğundan İntibah dövrü üçün səciyyəvi olan estetik təfəkkür həm antik mədəniyyətə aid olan kosmosentrizm xüsusiyyətlərini, həm də Orta əsr mədəniyyətinə aid olan teosentrik xüsusiyyətləri özündə ehtiva edir.

Kosmosentrizm xüsusiyyətlərini qəbul edən teosentrizm isə, əslində, panteizmin bir variasiyasıdır. Bu səbəbdən də İntibah estetikasında gözəlliklə bağlı ideyaların xarakterik xüsusiyyətlərindən biri onda panteizm elementlərinin mövcudluğu olmuşdur. Əgər İntibaha qədərki orta əsr estetik təfəkküründə teosentrizm özünü transsendent xassəli kimi göstərirdisə, İntibah dövründə teosentrizm özünü daha çox panteist mövqedən göstərdi. Təbiət panteizm ruhunda şərh edilirdi.

**Teosentrik prinsipdən antroposentrik prinsipə transformasiya ilahi gözəllikdən insani gözəlliyə transformasiyanın əsası kimi.**

İntibah dövrü filosoflarından Marsilio Fiçino, Nikolay Kopernik və Nikolay Kuzalı bu mövqedən çıxış edərək təbiətlə Tanrı arasında ümumi ortaq məxrəc axtarmışlar. Göstərilən kontekstdə ***Nikolay Kuzalı***nın (1401-1464) estetikası xüsusi maraq kəsb edir; belə ki, onun gözəlliklə bağlı ideyaları daha çox panteizm ruhunda olmuşdur. İntibah dövründə estetik ideyaları ilə çıxış edən mütəffəkirlərdən biri olan Nikolay Kuzalı artıq həmin dövrdə qürub etməkdə olan neoplatonizmin nümayəndəsi idi. Şərti olaraq "*Gözəllik haqqında*" adlandırılan əsərində Nikolay Kuzalı, daxili strukturuna görə, gözəlliyin üç səviyyəsini fərqləndirir [5, s. 116-122]. Birincisi, Tanrıya məxsus gözəlliklər, ikincisi, ilahi nurun insana təsiri nəticəsində meydana çıxan insanaməxsus fiziki və mənəvi gözəlliklər və ən nəhayət, üçüncüsü, cisimlərin forma və tərəflərinin vəhdətində ifadə olunan gözəlliklər. Buna uyğun olaraq Nikolay Kuzalı, gözəlliyin ali mütləq və sadə konkret formalarını fərqləndirir. Gözəlliyin ali forması - həqiqi xeyirxahlığı özündə əks etdirən ilahi gözəllikdir. İnsandakı və təbiətdəki gözəlliklər isə bilavasitə gözəlliyin mənbəyi kimi çıxış edən ilahi gözəlliyin emanasiyasının nəticəsində meydana çıxır. Mütləq gözəllik Tanrıya məxsus olan elə keyfiyyətdir ki, o, insan tərəfindən dərkedilməz olduğu üçün onun haqqında mühakimə yürütmək mümkün deyildir. Lakin insan onun aşağı səviyyəli konkret formalı təzahürlərini özündə və təbiətdə müşahidə edə və dərk edə bilər.

Gözəllik probleminin orta əsrlərdəki anlamı, yəni ona əsas etibarilə ilahi qüvvənin tərənnümü ilə bağlı yanaşmalar İntibah dövrünə, xüsusən onun erkən mərhələsinə xas olmuş və bu dövrün incəsənət əsərlərində əyani şəkildə təsvir olunmuşdu.

***Sandro Bottiçelli*** (1445-1510) öz əsərlərində insanın daxili aləmini, əhval-ruhiyyəsini, həyəcanlarını əks etdirir. Onun “Bahar”, “Veneranın doğulması” əsərlərində qadın gözəlliyinin tərənnümünə həsr olunmuşdur.

İncəsənətin yüksək inkişafı, ümumiyyətlə, İntibah dövrünün əsas cəhətlərindən biri kimi qəbul edilə bilər. İntibah dövrünün bəşəriyyətə mühüm töhfələrindən, bəlkə də, birincisi insan zəkasının məhz sənət sahəsindəki yüksək inkişafı ilə bağlı olmuşdur. Təsadüfı deyildir ki, tarixin bu mərhələsində mədəniyyətin inkişafı insani dühanın xüsusilə incəsənət sahəsində parlaq bir şəkildə reallaşmasına imkan vermiş və dünya incəsənətinin dahi şəxsiyyətlərini yetişdirmişdir. İncəsənət Leon Batista Alberti, Leonardo da Vinçi və Mikelancelo kimi dühalar tərəfındən ən yüksək zirvələrə qaldırılmışdır. Onlar təbiətdəki və cəmiyyətdəki gözəllikləri sənətdə əbədiləşdirməklə yanaşı, eyni zamanda gözəlliyin və sənətin müəyyən fəlsəfi şərhini də vermişlər.

İtalyan humanisti, memar, şair və filosof ***Leon Batista Alberti***nin (1404-1472) estetik təfəkkürü belə bir yöndə idi ki, gözəl əşyalarda bizim hisslərimizi cəlb edəcək nə isə bir ecazkar həqiqət mövcüddur və bu həqiqət insani biliklərin yaranmasında mühüm amil kimi çıxış edir. Təbiətdəki gözəlliklər maddi daşıyıcılara malik olsa da, ümumiyyətlə, gözəllik ilahi ruhdan qaynaqlanır. İnsan maddi daşıyıcılar arxasında gizlənən gözəllikləri hiss etmək və anlamaq qabiliyyətinə malikdir. Gözəlliyin insan tərəfindən qavranılması qabiliyyəti anadangəlmə, fıtri xarakter daşıyır. Belə bir qabiliyyəti inkişaf etməyən insana nadir hallarda rast gəlinir. Təbiət subyektsiz və yaxud ruhsuz öz-özlüyündə gözəllik tutumuna malik deyil. Təbiətdəki gözəllikləri axtarıb araşdırmaq və onların həqiqətini anlamaq isə zəkanın işidir [6, c. 2. s. 326]. Göründüyü kimi, gözəlliyin dərk edilməsində Alberti subyektə, insan amilinə geniş yer verir. Burada gözəlliyə spiritualist yanaşmanın elementləri özünü göstərsə də, təbiətə məxsus olan gözəlliyin zahiri əlamətləri tam mənasında inkar olunmur.

Dahi rəssam, təbiətşünas və filosof ***Leonardo da Vinçi***nin (1452-1519) yaradıcılığında gözəlliyin şərhi təbiət təsviri və subyektin fərdi intelekti ilə əlaqəli götürülür. Gözəlliyi təbiətin əsəri və dünyanın əzəməti hesab edən mütəffəkir incəsənətin inkişafını zəka ilə əlaqələndirmişdir. İnsanlar predmetləri məhz zəka vasitəsilə qavramaları nəticəsində onları qiymətləndirmək imkanına malikdirlər. Leonardo eyni zamanda gözəlliyin mahiyyəti məsələsinə də toxunmuş və bu məsələdə Aristotelin orta hədd fikri ilə razılaşmamış, gözəlliyin ətrafdakı cisimlərin kəmiyyətinə deyil, keyfıyyətinə əsasən müəyyən olunması fikrinə gəlmişdir. Onun fıkirlərinə digər Antik dövr fılosoflarından - Pifaqor və Platonun xüsusi təsiri olmuşdur. Pifaqorçuların kosmik həqiqət və gözəlliyin harmonik fəaliyyətinin əsası kimi qəbul etdikləri «on amil» (dekada) nəzəriyyəsinin və yaşadığı dövrdə platonizmin əşyalardakı zahiri əlamətlərlə yanaşı, onun daxili ideyaya, dünyaya malik olmasının, yəni ideyalar nəzəriyyəsi -nin təsir elementlərinə də rast gəlmək olar [6, c. 2. s. 356-357].

İntibah dövrünün digər ən tanınmış nümayəndəsi olan ***Mikelancelo Buonarroti*** (1475-1564) də öz yaradıcılığında insanın zahiri gözəlliyi ilə yanaşı, daxili dünyasının gözəlliklərini verməyə çalışmışdır. İnsanın cismani gözəlliklərindən danışmaq heç də onun daxili gözəlliyini unutmaq demək deyildir. Mikelancelo İntibah dövrünün məşhur heykəltəraşı kimi, gözəlliyi cismin xarici elmentlərdən (məsələn, daş mərmərin yonulması nəticəsində əldə olunan sənət nümunəsi) azad edilməsi yolu ilə cisimlərdəki daxili gizli gözəlliyin üzə çıxarılması kimi təqdim edirdi. Mikelancelo belə hesab edirdi ki, sənətkar ilk növbədə mövcudluqdakı nizam və harmoniyanı Tanrının dünyayaratma qüdrəti ilə əlaqələndirməli, təbiətdəki gözəlliklərin təqlidi zamanı özünü yaradıcı və ya ixtiraçı deyil, insanlar üçün gizli və ya sirli qalmış batini gözəlliklərin sənət əsərlərində təsvirini verməklə, onların aşkarlanmasında vasitəçi rolunu oynayaraq bu ali müdrikliyin ardıcılı kimi çıxış etməlidir. «Gözəllik təbiətdə gizli formada mövcuddur, təbiətin təqlidi zamanı gözəlliyə aparan yol özündə eyni zamanda həqiqəti və həyatiliyi əks etdirir. Bu

yolda isə sənətkar artıq mövcud olan gözəlliyi başqa şəklə salmaqla sanki «ideal» yaratmağa can atır». [2, s. 202]

Bu dövrdə incəsənət, bir tərəfdən, bilavasitə gözəllik tələbi ilə sıx surətdə əlaqələndirilmiş, digər tərəfdən isə sənət əsərlərinin başlıca məqsədi Tanrının əzəmətini və müdrikliyini tərənnüm etmək olmuşdur. Bu səbəbdən də İntibah dövründə yaradılmış sənət nümunələrində gözəllik bir keyfıyyət kimi müdriklik, əzəmət və xeyirxahlığın mücəssəməsinə çevrilmişdir.

Bu hal estetik təfəkkürün klassik orta əsrlərdəki durumunu onun İntibah dövründəki durumu ilə eyniləşdirir. Amma estetik təfəkkürün klassik orta əsrlərdəki durumu ilə İntibah dövründəki durumu arasında çox mühüm fərqlər də mövcuddur. Bu fərqlər son dərəcə yığcam şəkildə belə ifadə oluna bilər ki, İntibah dövrünün estetik ideyaları əvvəlki dövrlərin estetik ideyalarından antroposentrizm prinsipi və bununla əlaqədar olaraq həm də humanizm prinsipinin ön plana çıxarılması ilə fərqlənmişdir. Bu dövrdə insana azad və hərtərəfli inkişaf etmiş varlıq kimi, Tanrının ən ali möcuzəsi kimi yanaşılmış və bütün aləmə məxsus olan gözəlliklərin ən ali zirvəyə məhz insanın şəxsində yüksəldiyi bəyan edilmişdir.

Fövqəltəbii yaradıcı varlıq olan Tanrının özü *dahi sənətkar* (*summus artifex*) kimi qiymətləndirilmişdi. [4, s. 72]

İntibah mədəniyyətinin digər ən səciyyəvi xüsusiyyətlərindən biri kimi Tanrının transsendent anlamından panteist anlamına keçidin genişləndirilməsi çıxış edir. Tanrının transsendent anlamından panteist anlamına keçid isə neoplatonizmi yenidən xüsusi diqqət mərkəzinə gətirdi. Neoplatonizmin davamçıları İntibah humanizminə münasibətdə məxsusi həssaslıq nümayiş etdirdilər və nəticədə neoplatonizmin İntibah mədəniyyətinə təsiri özünü ən yüksək səviyyədə göstərdi. Platon fəlsəfəsinin neoplatonist şərhində italyan humanistləri estetik təfəkkürün yeni üslubunu tapdılar. Bu üslub, hər şeydən öncə, gözəlliyin panteizm ruhunda şərhi ilə bağlı idi.

İntibah dövrünün estetik təfəkküründə gözəlliyin neoplatonizm kontekstində şərhi həm neoplatonizmin, həm də İntibah mədəniyyətinin estetik konsepsiyalarında gözəllik probleminə yanaşmada ümumi oxşar cəhətlərin olmasından irəli gəlir, baxmayaraq ki, estetik fıkir tarixi nöqteyi-nəzərindən neoplatonizm ilk növbədə antik təfəkkürün ifadəçisidir. Antik estetik düşüncədə neoplatonizm gözəlliyin mənbəyini dünya zəkasında görür, gözəlliyi dünya zəkasının cisimlərdəki mücəssəməsi kimi qəbul edir. Neoplatonizmin estetik təfəkkürün inkişafına sonralar da təsir göstərməsi faktı ilə artıq biz Avqustinin və Foma Akvinalının estetik mülahizələrinin tədqiqi zamanı elə bu yarımfəsildə rastlaşmışıq. Aparılmış tədqiqatlardan göründüyü kimi, həmçinin klassik orta əsrlərdə də mütəfəkkirlər neoplatonizmdən qidalanmışlar. Neoplatonizmin estetik təfəkkürün inkişafına göstərdiyi təsir İntibah dövründə xüsusi intensivliklə davam etmişdir.

Üstəlik buraya onu da əlavə edək ki, neoplatonizmin estetik təfəkkürün inkişafına klassik orta əsrlərdə və İntibah dövründə göstərdiyi təsir formaları bir-birindən təkcə intensivliyinə görə deyil, həmçinin digər əlamətlərinə görə də fərqlidir. Klassik orta əsrlərdə teosentrik xarakter daşıyan yeni xristian platonçuluğunda gözəlliyin şərhi mutləq ilahi varlığın təfsirinə xidmət etmişdir. İntibah neoplatonizmi isə ifrat antropomorfizmi ilə fərqlənmiş, Tanrı və insanın mütləq immanentliyinə əsaslanmışdır.

Bu dövrün estetik ideyaları ilə yanaşı, həm də elmi ideyalarının başlıca çıxış nöqtəsi insanın fərdi azadlığı olmuşdur. İntibah dövründə elm və incəsənətin bir sıra sahələri geniş inkişaf etməyə başlamış, elmin və incəsənətin üzvi sintezi həyata keçirilmişdir.

Bu halın nəticələrindən biri isə o olmuşdur ki, həmin dövrdə incəsənətin və gözəlliyin elmi-nəzəri əsasları geniş tədqiq edilmişdir. İntibah dövründə incəsənətin və gözəlliyin elmi-nəzəri əsaslarının göstərilən geniş tədqiqi isə yuxarıda adları çəkilən Alberti, Leonardo da Vinçi, Mikelancelo kimi sənət yaradıcıları ilə yanaşı, həmçinin də digər mütəfəkkirlər tərəfindən, başlıca olaraq Lorenso Valla və Marsilio Fiçino tərəfindən həyata keçirilmişdir.

Albertidən, Leonardo da Vinçidən və Mikelancelodan fərqli olaraq ***Lorenso Valla*** (1407-1457) üçün gözəlliyin daxili mahiyyəti deyil, məhz zahiri əlamətləri ön planda idi. Həmin mütəfəkkirlərdən fərqli olaraq Valla ilahi gözəlliyi deyil, cismani gözəlliyi diqqət mərkəzinə

çıxarırdı. Əgər əvvəlki əsrlərin mütəfəkkirləri cismani gözəllikdə ilahi mahiyyətin bir mücəssəməsini görürdülərsə, epikürçü olan Valla gözəllikdə daha çox həzz mənbəyini görürdü.

Vallanın özü cismən gözəl deyildi, eybəcər idi. Görünür, həm də buna görədir ki, Valla eybəcərliyi də gözəllik qədər əhəmiyyətli hesab edir və vurğulayırdı ki, eybəcərlik gözəlliklə əkslik təşkil etdiyindən gözəlliyin əhəmiyyətini və gücünü xüsusi olaraq nəzərə çarpdırır[1, s. 44]

İntibah dövrünün mütəfəkkirlərindən olan italyan filosofu ***Marsilio Fiçino*** (1433-1499) isə Valladan fərqli olaraq İntibah dövrü mədəniyyəti üçün son dərəcə səciyyəvi bir fiqur idi. O, İntibah dövrü üçün xarakterik olan neoplatonizm ideyalarının nəinki tərəfdarı idi, hətta bu ideyaların geniş yayılmasında müstəsna xidmətləri vardı - o, Florensiyada Platon Akademiyasının əsasını qoyan şəxs idi.

Elə bu səbəbdən idi ki, Fiçino Aristotelin gözəllik konsepsiyasına qarşı öz etirazını bildirirdi. O, belə hesab edirdi ki, gözəllik təkcə proporsiyadan ibarət ola bilməz, norma ilə müəyyən edilə bilməz, bədəndə üzvlərin proporsiyasının və ölçüsünün eyni cür qalmasına baxmayaraq, zamanın heç də bütün anlarında bədən eyni gözəllikdə görünmür. Zamanın müəyyən anında insan son dərəcə gözəl və cazibəli görünsə də, digər zaman anlarında əvvəlki kimi gözəl və cazibəli görünmür. Çünki gözəlliyin mənbəyi heç də proporsiya və norma deyildir, qrasiyadır, hərəkətin harmoniyasıdır [1, s. 44-45].

**Nəticə/Conclution**

İntibah dövrünün ideyaları estetik fikir tarixinin mühüm inkişaf mərhələsini təşkil edir. Orta əsrlərin son mərhələsi olan İntibah dövrü ondan sonrakı yeni və müasir dövr ideyaları üçün əvəzolunmaz irs qoymaqla, böyük xidmət göstərmişdir. İctimai şüurun digər formalarında olduğu kimi, estetik şüurun zənginləşməsində xüsusi önəm kəsb edən İntibah dövrünün ən başlıca xidməti ondan ibarət olmuşdur ki, o, bəşəri ideyaların elmiləşməsi istiqamətində orta əsrlərin dini - sxolastik ideyalarından dünyəvi baxışa keçid üçün zəmin yarada bilmişdir. Əgər orta əsrlərin klassik dövründə estetik təfəkkürün mərkəzi ideyasını mütləq transsendent varlıq kimi anlaşılan Vahid Tanrı ideyası təşkil edirdisə, İntibah dövründə estetik təfəkkürün mərkəzi ideyası kimi insanın fərdi azadlığı çıxış etməyə başlayır. Azad düşüncəli insanın varlığı və bədii-estetik fəaliyyəti bu dövrdə öz inkişafının yüksək zirvəsinə çatmış, orta əsrlərin hələ klassik dövründə estetik təfəkkürə müdaxilə edən antik ideyalar orta əsrlərin sonlarında dini-sxolastik elementlərdən tədricən təmizlənərək, sonrakı dövrlərdə dünyəvi ideyaların yaranmasına səbəb ola bilmişdir [9].

## İstifadə olunmuş ədəbiyyat / Reference

1. Əlizadə H. G. Estetika. Bakı.: Elm. - 2007. - 380 s.
2. Гильберт К. Э. , Кун Г. История эстетики. СПб.: Алетейя. - 2000. - 652с.
3. Клулас И. Лоренцо Великолепный. пер. с фр.Н. Зубкова. М :Молодая гвардия, 2007, 287 с.
4. Лосев А.Ф. Эстетика Возрождения. М.: Мысль, 1978.- с.623
5. Николай Кузанский. Вся ты прекрасна, возлюбленная моя… // Эстетика Ренессанса. В двух томах. М.: Искусство, 1981. с. 116-122.
6. Эстетика Ренессанса: Антология в 2-х томах. // Шестаков В. П. (сост.). М.: Искусство, 1981. т.1. - 496 с., т.2. - 641 с.
7. Encyclopædia Britannica, "Renaissance", 2008
8. Harris, Michael H. History of Libraries in the Western World, Scarecrow Press Incorporate, 1999, ISBN 0-8108-3724-2
9. Neill, Alex. Ridley, Aaron. eds, The Philosophy of Art: Readings Ancient and Modern, 1998. – www. Aesthetics-online. org/reviews/index. php?reviews_id=15
10. Norwich, John Julius, A Short History of Byzantium, 1997, Knopf, ISBN 0-679-45088-2

## ЗАПАДНОЕ ВОЗРОЖДЕНИЕ И АНТРОПОЦЕНТРИЧЕСКАЯ ПАРАДИГМА

**Наиля Асадова**

**Резюме**. Основная цель статьи Наили Асадовой - анализ антропоцентрической парадигмы в контексте Западного Возрождения.

**Методология**: при написании статьи автор использовал индуктивный метод и метод сравнительного анализа.

**Научная новизна**: научная новизна статьи заключается в применении антропоцентрической парадигмы к изучению культуры Возрождения. В отличие от форм эстетического самосознания, характерных для других эпох, искусство Возрождения подходило к человеку, его сущности, природе, пониманию его места в мире на основе именно антропоцентрического принципа.

**Ключевые слова**: Возрождение, антропоцентризм, Бог, эстетика, культура, человек, красота, гуманизм.

## WESTERN RENAISSANCE AND ANTHROPOCENTRIC PARADIGM

**Nailya Asadova**

**Abstract.** The main goal of Naila Asadova's article is to analyze the anthropocentric paradigm in the context of the Western Renaissance.

**Methodology:** The author used the inductive method and the method of comparative analysis.

**Scientific novelty:** The scientific novelty of the article lies in the application of the anthropocentric paradigm to the study of the Renaissance culture. In contrast to the forms of aesthetic self-awareness characteristic of other epochs, the Renaissance art approached man, his essence, nature, and the understanding of his place in the world on the basis of the anthropocentric principle.

**Keywords:** Renaissance, anthropocentrism, God, aesthetics, culture, man, beauty, humanism.

**Göndərilib: 02.04.2022** **Qəbul edilib: 02.05.2022**